# Ali Məqamlı Rəhbərin Ərbəin zəvvarlarını öz evlərində qonaqlayan sadə İraq vətəndaşlarından bir qrupu ilə görüşü zamanı etdiyi çıxis - 11 /Sep/ 2024

İslam İnqilabının Rəhbəri Həzrət Ayətullah Xamenei öz müraciətində İmam Hüseynin Ərbəin mərasimi günlərində ziyarətçilərə ev sahibliyi etmiş sadə vətəndaşlara və böyük İraq xalqına təşəkkür etdi. İran İslam Respublikasının Prezidenti cənab doktor Məsud Pezeşkiyan bu gün səhər 21 şəhrivər 1403-cü il tarixində (11.09.2024) İraqa etdiyi səfəri zamanı bu müraciətin lövhəsini və ərəbcə mətnini İraqın baş nazirinə təqdim etdi.

**İnqilabın Rəhbərinin müraciətinin ərəbcə mətni:**

بسم اللّٰه الرّحمن الرّحيم
بدايةً، لابدّ من كلمة شكر أتوجّه إليكم بها من أعماق قلبى، وبالنيابة عن الشعب الإيرانىّ العظيم، إليكم أنتم، أصحابَ المواكب، يا مَن تجلّت بكم فى أيّام الأربعين أسمى درجات الكرامة والرحمة والمودّة، وإلى شعب العراق العظيم بأسره، وإلى المسؤولين فى الحكومة العراقيّة. الذين وفّروا الأمن والبيئة والظروف المناسبة للزيارة، وأخصّ بالثناء العلماءَ الأجلاءِ والمراجعَ العظام فى العراق، الذين هيّأوا الأجواءَ المناسبة لهذه الزيارة، وأشاعوا مشاعرَ الأخوّة بين الناس، وبين الشعبين، وهو ما يستحق الشكر حقًّا.
إنّ ما تفعلونه - أيّها الأخوة العراقيّون الأعزاء - فى مواكبكم المنتشرة على الطريق، ومعاملتكم الكريمة لزوار الحسين (ع)، لا نظير لها فى عالمنا اليوم، كما أنّ زيارة الأربعين بحدّ ذاتها لامثيل لها فى التاريخ. كذلك، فإنّ توفير أمن عشرات الملايين من الناس وسلامتهم، يُعدّ مهمّة عظيمة وفريدة من نوعها فى عالم اليوم غير الآمن.
لقد جسّدتم بسلوككم وفعالكم الكرمَ الإسلامىّ وحُسنَ الضيافة العربيّة، كلّ ذلك فى محبّة سيّد الشهداء (سلام اللّٰه عليه). إنّ محبّة الحسين بن علىّ (ع) هذه، فريدة من نوعها، ولا شبيه لها على امتداد الزمان والمكان. نرجو اللّٰه المتعالى أن يعمر قلوبكم وقلوبنا بهذه المحبّة أكثر فأكثر. إن دائرة الانجذاب نحو هذه المحبّة آخذة بالاتساع، بحمداللّٰه، بدءًا من المواجهة الملحميّة فى غزّة، وصولاً إلى كثير من المجتمعات غير المسلمة.
على الحسينى الخامنئى
صفر الخير ١٤٤٦

**İnqilabın Rəhbərinin müraciətinin azərbaycanca tərcüməsi:**

Mərhəmətli və Bağışlayan Allahın adı ilə

Birinci söz təşəkkürdür. Öz adımdan və böyük İran xalqı adından Ərbəin günlərində həm ləyaqət, mərhəmət və sevgini ən yüksək dərəcəyə çatdırmış ziyarətçiləri öz evlərində qonaqlayan sadə vətəndaşlara, həm böyük İraq xalqına, həm təhlükəsizliyi təmin etmiş, bütün lazım olan şəraiti yaratmış İraq hökumətinə, həm də ziyarət mühitini insanlar və iki xalqın nümayəndələri arasında qardaşlıq mühitinə çevirmiş böyük İraq alimləri və mərcə-təqlidlərinə səmimi qəlbdən təşəkkür edirəm. Həqiqətən, təşəkkür ediləsi məsələdir.

Siz əziz iraqlı qardaşların yol üzərindəki xidmət çadırlarında göstərdiyiniz xidmətin, İmam Hüseyn zəvvarları ilə ləyaqətli davranışınızın bu gün dünyada misli yoxdur. Ərbəin yürüşünün özünün tarixdə misli olmadığı kimi, hazırki əmin-aman olmayan bir dünyada onlarla milyon insanın təhlükəsizliyi təmin etmək və sağlamlığını qorumaq özü də böyük və misilsiz bir işdir.

Siz İslam və ərəb ləyaqətini öz davranışlarınız və əməllərinizdə göstərdiniz. Bütün bunlar Seyyidüş-şühədaya (ə) olan sevgidən irəli gəlir. Hüseyn ibn Əliyə (ə) olan bu sevgi müstəsna bir işdir. Onun bənzərini heç yerdə, heç zaman görməmişik və görməyəcəyik. Ümidvarıq ki, Allah-taala bu sevgini sizin və bizim qəlbimizdə günbəgün artıracaqdır.

Bu gün bu sevginin cazibə dairəsi elə bir miqyasa çatıb ki, Qəzzadan tutmuş qeyri-müsəlman cəmiyyətlərə qədər izdihamlı bir arenanı əhatə edir.

**Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir**